**Asiya-Sakit Okean Regionu Kosmik Agentliklərinin Forumu (APRSAF) ilə əməkdaşlıqda məktəblilərin "Beynəlxalq Kosmik Poster Müsabiqəsi" (APRSAF Space Poster Competition)**

İlk dəfə 1993-cü ildə Tokio şəhərində keçirilmiş Asiya-Sakit Okean Regionu Kosmik Agentliklərinin Forumu (APRSAF) dünyada kosmik sahə üzrə ən nüfuzlu tədbirlərdən hesab olunur. Forum 52 ölkədən 844 nüfuzlu təşkilatı və 32 beynəlxalq qurumu bir araya gətirərək ev sahibliyi edən yerli tərəfdaşın birgə təşkilatçılığı ilə fərqli ölkələrdə keçirilir. Hər il noyabr ayının sonu və ya dekabr ayının əvvəlində baş tutan Forumda dünyanın ASA (Avstraliya), CNSA (Çin), JAXA (Yaponiya), ISRO (Hindistan), TUA (Türkiyə), UAESA (BƏƏ), NASA (ABŞ), ESA (Avropa) kimi aparıcı kosmik agentliklərinin, elmi mərkəzlərin və mötəbər beynəlxalq təşkilatların rəhbərləri, məşhur alimlər, özəl sektorun yüksək səviyyəli rəsmiləri və gənc tədqiqatçılar daxil olmaqla kosmos sahəsinin 50-dən çox ölkəsini təmsil edən 500-dən çox nümayəndəsi iştirak edir. İştirakçıların sayı ev sahibi edən ölkənin təşəbbüsü əsasında APRSAF Baş Katibliyinin yekdil qərarı ilə artırıla bilər. Forum beş işçi qrupdan ibarət olub - peyk tətbiqləri, kosmik tədqiqatların təkmilləşdirilməsi, kosmik təhsil, kosmik cəbhə, kosmik diplomatiya və hüquq, eləcə də kosmik sənaye kimi istiqamətlərdə fəaliyyət göstərir. Forum həmçinin iştirakçı tərəflərin qarşılıqlı əməkdaşlıqdan faydalanması üçün fəlakətlərin idarə edilməsi və ətraf mühitin mühafizəsi kimi ümumi məsələlərin həlli kimi beynəlxalq layihələrin yaradılmasını dəstəkləyir.

APRSAF Asiya-Sakit Okean regionunda kosmosla əlaqədar regional və qlobal məsələləri həll etmək və konkret həllər tapmaq naminə "Sentinel Asia" (Fəlakətlərin idarə edilməsi), "SAFE" (Ətraf mühit üçün kosmik tətbiqlər), "Climate R" (Əsas iqlim missiyaları üçün regional hazırlıq icmalı), "Kibo-ABC" ("Kibo" istifadəsi ilə Asiya ölkələrinin faydalı əməkdaşlığı), "NSLI" (Milli kosmik qanunvericilik) kimi beynəlxalq təşəbbüs layihələrini təklif edir.

Beynəlxalq Kosmik Poster Müsabiqəsi (APRSAF Space Poster Competition) hər il Asiya-Sakit Okean Regionu ölkələrindən eləcə də əməkdaş-assosiativ üzv ölkələrdən üç mərhələ üzrə 4000-dən artıq 5-9-cu sinif şagirdlərini bir araya gətirir. Müsabiqə kosmik mövzuda onlayn posterlərin hazırlanması, təqdimatı və əsaslandırılması ilə tamamlanır.

27-ci Beynəlxalq Kosmik Poster Müsabiqəsi 2020-ci ildə Yaponiyanın Tokio şəhərində təşkil olunmasının planlaşdırılmasına baxmayaraq, Forumun əyani formada keçirilməsi COVID-19 pandemiyası səbəbilə APRSAF təşkilat komitəsi tərəfindən növbəti ilə keçirilmişdir. Beləliklə, Vietnam Respublikasının Hanoi şəhəri 2022-ci ildə, İndoneziya Respublikasının Cakarta şəhəri isə müvafiq olaraq 2023-cü ildə Müsabiqəyə ev sahibliyi etmişdir. Cakarta şəhərində keçirilmiş Beynəlxalq Kosmik Poster Müsabiqəsi 29-cu olmuşdur. Cari ildə Avstraliya İttifaqının Pers şəhərində keçiriləcək müsabiqə 30-cu olaraq planlaşdırılır. 2025-ci ildə sayca 31-ci Müsabiqəyə Filippin Respublikası ev sahibliyi edəcəkdir.

Milli mərhələyə ev sahibliyi edən ölkənin Elm və Təhsil Nazirliyi ilə Kosmik Agentliyinin birgə əməkdaşlığı ilə baş tutan açılış və bağlanış mərasimləri, yüksək səviyyəli onlayn plenar sessiyalar, seminar, mühazirə, dəyirmi masa, kosmos sahəsində ən son yeniliklərin nümayiş etdirildiyi master klasslar və ən əsası posterlərin təqdimatından ibarət sərginin keçirildiyi təhsil ilini əhatə edən Müsabiqənin Azərbaycan Respublikasında milli mərhələ olaraq oktyabr 2024 - may 2025 tarixlərində keçirilməsi təsdiqlənmişdir.